Hüseynqulu Sarabski: Səhnə fəaliyyətinin 30 illiyi...

(Əvvəli ötən sayımızda)

Hacı Qəmbər rolunu o zaman mən oynayırdım. Günahkar oldum bu sözü dedim. O günün sabahı İçəri Şəhərdəki Qrepostnoy küçə ilə gedirdim. Bir nəfər şişpapaq qabağımı kəsdi və məndən soruşdu ki:

"Keçən gecə teatrda Həci Qəmber olan sən idün?"

Dedim "Bəli".

"Balam, teatro oynadığınız bəs deyil, bizim mollalarımızın adını niyə çəkirsiniz? " – deyə, mənə bir sillə vurub getdi.

İkinci dəfə həmin komediyanı oynayanda sillənin qorxusundan Molla Səfi əvəzinə Mirzə Səfi dedim. (Hüseynqulu Sarabski. "Bir aktyorun xatirələri".)

Türk teatrı öz ilk fəaliyyətini Mirzə Fətəlinin altı komediyası ilə başladığı halda sonralar, yəni, XIX əsrin axırlarında və XX əsrin əvvəllərində teatr həyatında və dramaturgiyada üslub dəyişilməyə başlayır, komediya əvəzinə siyasi, aktual və həyati dram birinci yer tutmaqda olur.

O vaxt dramanın tamaşaçılara etdiyi təsiri bilmək üçün "İqbal" qəzetində dərc olunan məqalənin bir cümləsini belə gözdən keçirmək bəlkə, kifayət edər. "İqbal" qəzetinin münəqqidi "Nadir şah" tamaşasından bəhs edərək yazır ki:

"Keçən günlərdə Bakıda "Nadir şah" teatrosu oynanılırkən tamaşaçıların hönkür-hönkür ağlaması, "Ay, Allah bizi bu günlərə salanların evini yıxsın!" deməsi bizə sübut edir ki, cəmaətimiz dramadan nə qədər ibrət alır və feyziyab oluyor." ("İqbal" Nömrə 64, səh. 3.). Lakin, birinci ümum Rusiya inqilabı yatırılandan sonra, artıq opera səhnədə dirçəlib dramanı ikinci plana atır. Üzeyir bəy Hacıbəylinin əsərləri səhnəni "zəbt" etməyə başlayır.

Operanın əmələ gəlməsinin çox böyük müsbət cəhəti olmuşdur. O da, nəinki tək Azərbaycan, bəlkə, bütün yaxın Şərq ölkələrində belə musiqi teatrının qurulmasında ilk təşəbbüs olmasıdır.

Şübhəsiz ki, Hacıbəylinin yaratdığı opera teatrı bir əsas olaraq, bu gün hələ əhəmiyyətini itirməmiş və yaxın gələcəkdə onun yerində daha dərin və daha mədəni, canlı və yararlı opera mədəniyyəti yüksələcəkdir. Hüseynqulu Sarabski isə operanın meydana gəlməsində onun müsbət cəhətlərini qəbul edib, ilk tamaşanın pərdəsi açılandan bu günə kimi bu sahədə çalışmaqda davam edir.

Sarabskinin operaya biçilib-tikilməsinə daha bir səbəb o olmuşdur ki, o da, mahir artistimizin təbii səs talantına sahib olmasıdır.

"Hələ cocuq ikən bir ağ daş yonana şəyird idim. Daş yona-yona şikəstə oxuyardım. Mənimlə işləyən yoldaşlarım mənə deyərdilər: "Hüseynqulu, sənin əvəzinə biz daş yonarıq, sən əyləş, bizim üçün oxu."

Məhərrəmlikdə xeyr-şərdə Hüseynqulu öz səsi ilə çox yararlıq göstərirmiş.

"Məscidin böyüyü mənə dedi ki, 12 gün məhərrəmliyi işə getmə, hər nə ki, işdən alırsan, biz sənə verərik. Mən razı oldum.

... Mənim də oxumağa o qədər həvəsim var idi ki, həm mərsiyə deyər, həm də münacat çəkərdim". (Hüseynqulu Sarabski. "Bir aktyorun xatirələri").

Müstəqil binası olmayan, rejissorsuz, dirijorsuz, öz başına əmələ gələn türk operasının müvəffəqiyyətlə keçən ilk tamaşası böyük şadlıq bayramı halını almışdı. Və ağzına qədər dolu salon qarşısında Məcnun rolunu oynayana Sarabski elə bir məharət göstərmiş ki, teatro dostları, səhnə arxasına gəlib sevinclə onu öpür, tamaşaçılar isə dəfələrlə sürəkli alqışlar içərisində Məcnunu pərdə qabağına çağırmışlar.

Bu 30 ildə Sarabski türk teatrında bir çox obrazlar yaradıb, türk səhnəsinin yaradıcılıq sandığını zənginləşdirmişdir. Lakin, Sarabskinin yaratdığı bütün tiplər içərisində ən görkəmlisi Məcnun, Aşıq Qərib və Kərəm olaraq qalacaqdır.

Sarabskinin və ümumiyyətlə, türk səhnəsi əməkdaşlarının qocaman kadrosunun keçirdiyi qara günləri xatırlarkən onların böyük fədakarlığını hiss etməmək mümkün deyildir.

Həqiqətən, kim mənə dünyada belə bir opera teatrı göstərər ki, orada baş artist və ən ağır yükü daşıyan ustadın parnyorişası kişi olsun və hər ikisi səhnədə müvazinət və ahəng qanunlarına riayət edə bilsinlər!

İndiki tamaşaçımız səhnədə qadın rolunu oynayan kişi görməyib. Halbu ki, "xüsusən Ağdamski cənabları bu gün qəribə bir məharət göstərirdi. Ağdamski cənablarının övrət və o dərəcə ağır rolları yüngüllüklə aparması təqdirəlayiqdir." ("İqbal", nömrə 64, səh. 3).

Bu ağır və acınacaqlı bir halda çalışan türk aktyorları heç bir teatro məktəbi tərbiyəsi görə bilmədiyi halda, münəqqidlər də yazılarında onlara heç bir kömək verməyərək, bəzən aktyorları çaşdırmaqdan belə boyun qaçırmamışlar.

Həmin münəqqid cənabları elə zənn edirmişlər ki, Qars müsəlmanlarının adına yığılıb cəmiyyətlər əjdahalarının qarnına dolan gəliri artırmaq üçün artist xaltura edib, qarışıq tamaşaya yol verməliymiş.

Sarabskinin "bu nazının" əsl səbəbinə heç bir diqqət yetirən olmamışdır. Münəqqid milyonçuların gündə bir təşkil etdiyi cəmiyyətlərin xaltura tamaşalar verməklə yararlı artistlərin bacarığını öldürməsinə səbəb olmasını heç də ifşa etməyib, onları tənqid atəşi altına almaqdan vaz keçmişdir. Cəmiyyətlər başında duran milyonçular burada da istismar etmək qanunlarını möhkəmə yeridirdilər. Yeri gəlmişkən, bir kiçik hadisəni oxucularımıza bildirməyi lazım görürəm. Cəmiyyətlərin amansız istismarını görən Sarabski "Nicat"dan icazəsiz "Leyli və Məcnun" operasını qastrolda oynayır. Sarabskinin üzərində açıq məhkəmə düzəldilir. Nəinki, tək məhkəmə, hətta, qəzetlərdə belə bu münasibətlə Sarabskini biabır edib, ləkələndirməyə çalışırlar. Sevimli artistimiz artıq heç bir çarə tapa bilməyib bir gün Kərəm rolunu ifa edərkən vaxtından qabaq "ölür". Kərəmin partnyoru Kərəmə yaxınlaşaraq onun qolundan tutub qaldıraqaldıra demişdir ki, "Kərəm, ayağa qalx, hələ ölmək vaxtı deyil. Nicat cəmiyyətinin iclası hələ qərar çıxarmamışdır".

"Əsli və Kərəm"də söylənilən bu cümlə tamaşaçılar tərəfindən gurultulu alqışla qarşılanmışdır. Mətbuat nümayəndələri bir daha əsəbiləşib Sarabskiyə "bərk çəkmişdi". Ümumiyyətlə, o zamanın mətbuatı və münəqqidləri səhnə işçilərinə istənilən yardımı verməkdən aciz olmuşlar.

Onlar aktyorların yaradıcılıq təcrübələrini lazımınca qiymətləndirə bilmədikləri kimi, qəzet sütunlarını şablon və trafaretlə yazılmış məqalələrə doldurub təcrübəsiz səhnə işçilərinə heç bir yol belə göstərməmişdilər. Məsələn, "Məcnun rolunda olan Sarabski əqli başında Qeys ikən bir az süst görünürdüsə də, lakin, Leylinin eşqi ilə Məcnun olduqdan sonra doğrudan da, bir məcnun kimi atəşdə yana-yana qurban olaraq, fədayican edən aşiqləri təsvir edə bildi...

...Leyli rolunda Ağdamski də məcnuna layiq bir məşuqə kibi ələlxüsus məcnunun eşqi yolunda ölmək xeyri üçün əlləri ilə can çəkişdirirkən göstərdiyi halət şayan-təqdirdir" ("Sovqat" Nömrə 92, səh. 4).

Kapitalist cəmiyyətində Sarabski üçün artıq bəlli olmuşdur ki, türk əməkçilərinin və bütün insaniyyətin səadət yoluna çıxarılmasına yalnız işçi sinifi qadirdir. Sarabski üçün heç bir şübhə təşkil etmirdi ki, yeri gələr-gəlməz sinələrinə vura-vura "millət" adından barbar bağıranlar və onların quyruqları yalnız Bakı neftinin gəlirindən şişən ingilislərin və bəylərin mənafeyini güdür.

Odur ki, Sarabski 1919-cu ildə Mərkəzi Kluba gəlib firqələrin kütləvi və təbliğat işində böyük köməyi və əhəmiyyəti olan dram dərnəyi təşkil etmək və orada rejissor kibi çalışmağı öhdəsinə götürür.

O zamanda Sarabski əməkçi kütlələrin içərisində elə bir hörmətə malik idi

Hüseynqulu Sarabski Möhsün Sənani, Musa Hacızadə, Yunis Nərimanov və Rza Darablı ilə birgə. 1930-cu il.

ki, onun bu dərnəyə rəhbər olması bir sıra düşüncəli teatro həvəskarlarının kluba toplanması səbəblərindən biri olmuşdur. Onu da qeyd etməliyik ki, mərkəzi klubun dram dərnəyi üzvləri yalnız işçilərdən ibarət idi. Bu dərnək o zaman bütün dairələrdə şöhrətə malik idi. Həmin dərnəyin bir çox üzvləri imdi də səhnəmizdə görkəmli yer tutmaqdadır.

Mülkədarların təqib etdiyi təşkilatlar Sarabskinin fəaliyyətini qiymətləndirmiş və təntənəli iclasda Hüseynquluya kiçik, lakin, böyük məna ifadə edən ulduzlu nişan bağışlamışlar.

Vətəndaş müharibəsi bitdikdə Şura dövləti tərəfindən Sarabskiyə 1922-ci ildə yubiley təşkil edilir və ona Əməkdar artist adı verilir. Sarabski Şura hökuməti qurulandan bu günə kimi ictimai işlərin müxtəlif sahələrində çalışıb, əlindən gələn köməyi göstərir. Hüseynqulu ilk gündən başlayaraq bacarığını, talantını, yaradıcılıq temperament və qüvvəsini xidmətə vermişdir.

1920-ci ilin ilk aylarında biz Sarabskini kəndlərdə görürük. Burada xalq artisti Xalq Maarif Komissarlığında incəsənəti intişar edən baş təlimatçı sifəti ilə çalışdığı halda o, Məcnun olmaqla bərabər "qızışıb" Şura hökumətinin əhəmiyyəti haqqında kəndlilər arasında müzakirələr aparır.

1920-ci ilin 28 avqustunda Basqal kəndində təşkil olunan mitinq-iclasda Sarabski məruzədə bulunur.

"Sarabski əhalini təbrik edir və məqsədləri bir-bir söyləyir. Sonra teatro və musiqinin nə dərəcədə faydalı olduğunu bildirib, yaşasın Nərimanov – bu sözlər ilə nitqini qurtarır...

Sonra müxtəlif yoldaşlar Sabirin şeirlərindən oxuyurlar.

Axırda yoldaşların təvəqqəsinə görə Sarabski kərəmi oxuyur və mitinq başlayır." ("Kommunist". 1920-ci il. Nömrə 48, səh. 3)

Dövlət opera teatrının baş artisti Sarabski böyük şərq orkestrosu ilə 1925-ci ildə Şuralar İttifaqına qastrola çıxıb qonşu xalqları Azərbaycan türklərinin musiqi mədəniyyəti ilə tanış etməyə çalışır.

Moskva münəqqidləri lirik tenor səsinə malik olan Sarabskinin oxuduğu mahnı və el nəğmələrindən zövq alıb, belə mədəni əlaqələrin davam etdirilməsini çox mühüm və vacib vəzifələrdən hesab etmişlər.

Hər il Sarabski qardaş millətlərlə dostluq əlaqəsi əhəmiyyəti olan hökumətimizin təşkil etdiyi qastrollarda iştirak edir və hər dəfə də deyir:

-Keçmiş günlərimi xatırlayıram. O günlər ki, bir dilənçi və dərviş dəstəsi kimi düşürdük şəhərlərə, ölkələrə və bir oyunbaz kibi güzəran keçirirdik.

Acınacaqlı bir vəziyyət içərisində Sarabski kimi ziyalılar çarpışmışdır. Onlar rejissorsuz, rəssamsız, musiqiçisiz, dekorsuz, qarderobsuz, binasız, hətta, aktrisasız belə meydana çıxıb teatro mədəniyyətinin bünövrəsini hörərək, bu günkü şəkildə yüksək bir hala düşməsinə səy etmişlər.

Sarabski kimi səhnə qəhrəmanlarının keçirdiyi çətin, ağır, dolaşıq, şücaətli və cəsarətli günləri təsvir etməyə mürəkkəb və qələm belə acizdir.

Mənə elə gəlir ki, heç bir rəssam fırçası belə bu halları öz genişliyi və dərinliyi, bu əhəmiyyət və dəyəri ilə canlandıra bilməz.

Sarabskinin yaradıcılıq yolları, onun türk teatrında tutduğu mövqeyi daha dərindən, daha ətraflı bilmək üçün XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai hadisələri gözdən keçirmək və mədəniyyət uğrunda aparılan mübarizələri öyrənmək lazımdır.

Yalnız o zaman keçmiş həyat bütün çılpaqlığı ilə göz qarşısında durar və Sarabski kimi əməkçi ziyalıların rolu mövqeyi və əhəmiyyəti hiss edilə bilər.

Təbii, Sarabski bu mübarizədə tək deyildi. Rus jandarmeriyasının amansız zülmü, burjua, bəy-xan mühitinin alçaq və yaramaz təzyiqi altında teatro mədəniyyəti uğrunda çalışan bir sıra məharətli qüvvələrimiz də vardır.

Buna görə, Sarabskinin 30 illik yubileyi, xalq artistimizlə bərabər, teatro mədəniyyətini qara günlərlə, dolaşıq və çətin yollarla öz çiyinlərində gətirib bu günə çatdıran səhnə qəhrəmanlarının bayramıdır. Əlbəttə, bu yubiley Sarabski kimi əməkçi ziyalıların yaradıcılıq təşəbbüsünə geniş meydan açan işıqlı və mədəni sinifsiz günlərini yaradan Azərbaycan türklərinin bayramıdır.

Bu gün Sarabski səhnədə qarşılanarkən tamaşaçı yalnız onun mahir teatro ustası "Həqiqi Məcnun" olmasına əl çalmayacaqdır. Bu gün tamaşaçı Sarabskinin "səhnə yaraşığı" olması ilə bərabər, bir ictimai işçi kibi mənsub olduğu siniflə daima sıx əlaqə saxlamasına, o sinifin ürəyi ilə ürəyinin döyünməsinə, onun həmdərdli və həm də şənli günlərini birlikdə keçirməsinə görə səmimi ürəklə böyük sevinclə öz artistini alqışlayacaqdır. Tamaşaçı opera teatrının daha canlanması, yeni və yüksək pillələrə qalxması uğrunda aparılan mübarizədə öz sənətkarı Hüseynqulu Sarabskinin ciddi çarpışaraq, parlaq müvəffəqiyyətlərə nail olmasını arzulayacaqdır.

SON

Müəllif: İ.CAHANGİROV

Araşdıranı və tərtib edəni:
Sevindik Nəsiboğlu